№ 22(524) Həftəlik, ictimai, siyasi qəzet 03/09/2010

# "MƏN İLHAM ƏLİYEVİ SİNQAPUR LİDERİ İLƏ MÜQAYİSƏ EDİRƏM"

Məşhur alim, Kaliforniya Verkli Universitetinin professoru Lütfi Zadə Azadlıq Radiosuna müsahibə verib. Müsahibəni təqdim edirik. Lütfi A.Zadə 1921-ci il fevralın 4-də Vakıda anadan olub. Atası Rasim Ələsgərzadə İran azərbaycanlısı, jurnalist, anası Fanya Koniman Rusiya yəhudisi, pediatr olub. Lütfi Zadənin 10 yaşı olanda SSRİ lideri Stalinin kollektivləşmə mərhələsi başlayır və Lütfi Zadə atası ilə birlikdə İrana köçür.

Lütfi Zadə İranda böyüyür. 1944-cü ildə ABŞ-a köçür. 1973-cü ildə Lütfi Zadə onu dünyada məhşurlaşdıran qeyri-səlis məntiq nəzəriyyəsini təqdim edir. Evlidir, iki uşağı var. O, nüfuzlu Kaliforniya Berkli Universitetinin professoru, Yumşaq hesablamalar üzrə Berkli Təşəbbüsləri İnstitutunun direktorudur.

### "ÖZÜM HAQDA TƏRİFİ SEVMİRƏM"

**- Bilirsiniz ki, Azərbaycanda çox adam sizinlə fəxr edir, sizi sevirlər (sözümü yarıda kəsir)...**

**bağlı problemlər olduğunu deyirlər, korrupsiyanın səviyyəsinin yüksək olduğunu, azad sözə və jurnalistlərə basqının olduğunu bildirirlər...**

- Bilirsiniz, mənim bunların hər birindən xəbərim var. Müxtəlif tərəfləri, fikirləri dinləyirəm: həm tənqidçiləri, həm də hökumətin fəaliyyətini qiymətləndirənləri, həm

ma vəziyyətindədirlər. Bəlkə də heç belə demokratiya Azərbaycana lazım deyil. Kənardan baxanda mənə elə gəlir ki, Azərbaycanda vəziyyət sabitdir. Bəlkə də demokratiyanın vəziyyəti o qədər də yaxşı deyil, amma ölkədə ümumi götürəndə bir irəliləyiş müşahidə olunur.



Sinqapurda demokratiya yoxdur, amma orada yerə tüpürmək olmaz, səni cərimə edəcəklər. Hər cür qayda-qanun var, inkişaf var.

**- Amma Saakaşvilini diktator hesab edirsiniz?**

- Saakaşvili Cənubi Osetiya və Abxaziyaya hücum edəndə heç kimlə məsləhətləşmədi, o bunu özbaşına etdi, o diktatordur.

**- Siz Gürcüstandakı nümayişləri xaos sayırsınız. Amma bu prosesi inkişaf hesab edənlər də var...**

- Təcrübə göstərir ki, demokratiya əsasən yaxşı sözdür. Bu, sadə məsələ deyil. Başa düşürəm ki, sizin ziyalılar niyə razı deyillər bu quruluşla. Sovet İttifaqı vaxtı da belə idi, ziyalılar narazı idilər söz azadlığından, quruluşdan. Onlar devirdilər dövləti. İndiki vəziyyət ondakından yaxşıdırmı? Sizin ziyalıları başa düşürəm. Amma Azərbaycandakı rüşvət kimi problemlər heç bir quruluşla bağlı deyil. Bu daha çox millətin mədəniyyəti, adət-ənənəsi ilə bağlıdır. Bu, Azərbaycanda bir ənənədir. İranda da belədir.

də edəcəklər, iğtişaşlar yaranacaq. Mən bunu çox ölkələrdə görmüşəm, bunu başa düşürsünüz?! Adamlar demokratik sistemdə yaşamağa hazır deyillər, onlar buna hazır deyillər, sadəcə olaraq. Nə İranda hazır deyillər, nə Azərbaycanda.

**- Bu, İslamla bağlıdır, ya necə?**

- Bu, bir çox səbəblə bağlıdır. Qorbaçov heç nə başa düşmürdü. O anlamadı ki, 500 günə demokratiya gətirmək mümkün deyil. Ölkəni dağıtdı.

**- Amma İran ki Sovet hökumətinin daxilində deyildi, bu ölkəylə Azərbaycanı niyə bir tutursunuz?**

- İranda da demokratiyadan sui-istifadə etdilər. Orada da vəziyyət yaxşı deyil.

**- Bəlkə səbəb Şərqdir?**

- Bəli, Şərqdir. Baxın Qırğızıstana. Orada nə iğtişaşlar baş verdi. Azadlıq var, amma sakit həyat yoxdur. Ona görə də hələlik insanlara bu qədər azadlıq vermək lazım deyildi, bunun üçün zamana ehtiyac var idi. Bəlkə də 50 il

- Bilirsiniz, mən elə adam deyiləm ki, özüm haqqımda yüksək fikirdə olum, tərifi sevim. Çox sadə adamam mən.

**- Sizi bəzən Eynşteynlə, Aristotellə bir sıraya qoyurlar, razılaşırsınızmı bu fikirlə?**

- Xeyr, qətiyyən razı deyiləm. Heç vaxt özümü bu səviyyəyə qaldırmaram. Ümumiyyətlə, xoşuma gəlmir məni kiminləsə müqayisə edəndə. Mən sadə adamam.

**- Sizinlə müsahibəmiz olacağı barədə internet saytımıza elan qoymuşduq və sualların bir çoxunda oxucularımız Sizdən Azərbaycanın gələcəyini necə gördüyünüzü soruşmağımızı istəyirdilər...**

- Bu barədə optimistəm. Optimist olmağıma səbəblərdən biri budur ki, sizin ölkədə güclü liderlər var: prezident İlham Əliyev, rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov, məşhur alim Rafiq Əliyev... Azərbaycan nə Gürcüstan, nə də Ukrayna deyil ki, ölkədaxili qarşıdurmalar olsun. Sizin ölkənizin nefti var, gəlirləri var, gəlirləri çoxdur. Adambaşına düşən gəlirlər çoxdur. Bundan başqa, mən Azərbaycanda olanda mədəniyyətə yüksək qiymət verildiyini gördüm. Bu, çox mühüm göstəricisidir. Azərbaycan primitiv ölkə deyil.

**- Siz liderlər haqqında danışdınız. Amma ölkə başçısı İlham Əliyevi "mətbuatın düşməni" hesab edən beynəlxalq təşkilat da var, ölkə daxilində müstəqil və müxalif müşahidəçilər, o cümlədən bəzi beynəlxalq insan haqları təşkilatları, hətta Avropa Şurası da Azərbaycanda demokratiyanın vəziyyəti ilə**

yaşlıları, həm də cavanları. Başa düşürəm tənqidləri. İki baxış var: birincilər demokratiyanın olmasını ən vacib məsələ hesab edirlər, ikincilər isə sabitliyin olmasını prioritet sayırlar. Məsələn, Sinqapuru götürək. Sinqapurda Li prezident olanda heç bir demokratiya yox idi, elə indi də yoxdur. Amma Sinqapurda sistem çox yaxşı işləyir və həyat çox yaxşıdır. Bəzən seçim etmək lazımdır: sabitlik, yoxsa demokratiya. Məsələn, Ukraynada sabitlik yoxdur. Onlar hətta parlamentdə əlbəyaxa olurlar.

### "BƏLKƏ DƏ HEÇ BELƏ DEMOKRATİYA AZƏRBAYCANA LAZIM DEYİL"

**- Amma Azərbaycanın Konstitusiyasında yazılıb ki, bu ölkə demokratik ölkədir... Və hökumətin tənqidçiləri tez-tez deyirlər ki, bu cür imitasiya ölkə üçün xoş gələcək vəd etmir ...**

- İranda şah rejimi vaxtı heç bir demokratiyadan söhbət gedə bilməzdi. Sonra şahı devirdilər və demokratik quruluş yaratdılar. Bizdə - İranda demokratiya yarandı. Qəzetlər hər şeyi açıqca yazmağa başladılar, tətillər başladı, xaos baş aldı. Sovet İttifaqını götürək. Totalitar rejim dağıldı və Rusiyada demokratik dövlət yarandı. Amma baxın həyat yaxşılaşdımı? Dəhşətli rüşvətxorluq baş alıb gedir, kəskin təbəqələşmə var. Ölkə demokratiyaya hazır olmalıdır. Demokratiya yaxşı sözdür. Amma ona hazır olmaq lazımdır. Azərbaycanda da müxalifət partiyaları bir-biri ilə qarşıdur-

### "SAAKAŞVİLİ DİKTATORDUR"

**- Amma belə deyənlər də var ki, bu inkişaf neft gəlirlərinə görədir və müvəqqətidir. Dövlət sağlam özülü olmadığından onun gələcəyi qorxuludur... Məsələn, ölkənin neft gəlirlərindən danışdınız. Amma Azərbaycanda minimum pensiya 75 manatdır...**

- Ola bilər ki, neft gəlirlərinin hamısı əhaliyə çatmır. Bu, problemdir. Rusiyaya baxın. Orada vəziyyət dəhşətlidir. Siz Azərbaycanı Gürcüstanla, Özbəkistanla, Qırğıstanla, Ermənistanla müqayisə edin. Azərbaycanda vəziyyət bu ölkələrdən qat-qat yaxşıdır.

**- Amma Gürcüstanda Saakaşvilidən sonra rüşvətxorluğun kökü kəsilmək üzrədir və müşahidəçilər bu ölkənin Qərbə inteqrasiya istiqamətində Azərbaycana nisbətən daha sürətlə getdiyini deyirlər...**

- Gürcüstan tamamilə Qərbdən gələn pullar hesabına yaşayır. Bu pullar olmasaydı, gürcülər aclıq çəkərdilər. Orada nümayişlər, qarşıdurmalar səngimir. Saakaşvili diktatordur.

### "MƏN İLHAM ƏLİYEVİ DİKTATOR SAYMIRAM"

**- Bəs Azərbaycan prezidentini necə xarakterizə edirsiniz?**

- Mən İlham Əliyevi diktator saymıram. Mən onu Sinqapurun lideri ilə müqayisə edirəm. Onlar diktator deyillər, onlar çalışırlar ki, insanları başa düşsünlər, ölkəni irəli aparırlar. O, işıqlı bir liderdir.

**- Dediniz ki, İlham Əliyev işıqlı liderdir. Əgər bir ölkədə siyasi məhbusların olduğu iddia olunursa, söz və sərbəst toplaşmaq azadlığının qorunmaması barədə şikayətlər varsa, o ölkənin lideri haqda necə bu cür yüksək fikirdə olmaq olar? Sizə gələn suallardan birində deyilir ki, İlham Əliyevin qüsurları ola-ola Siz onu belə tərifləyirsiniz?**

- Mənim üçün güclü və sabitlik yaradan lider daha üstündür, nəinki söz azadlığına, demokratiyaya daha çox imkan verən, amma ölkədə sabitliyi qoruya bilməyən lider. Rusiyada, nəhayət ki, ziyalılar qalib gəldilər və demokratik dövlət quruldu, amma indiki vəziyyət, xalqın yaşayışı heç də əvvəlkindən yaxşı deyil. Məncə, Azərbaycanda da bu rejim dəyişsə və demokratiya olsa, həyat indikindən yaxşı olmayacaq.

**- Nəyə əsaslanıb deyirsiniz bunu?**

- Təəssüf ki, hər şey belə asan deyil. Mənim proqnozum belədir.

### "CİDDİ DƏYİŞİKLİK LAZIM DEYİL"

**- Onda Siz nə təklif edirsiniz? Daha çox azadlıq üçün mübarizə aparmağın əhəmiyyəti yoxdurmu? Əgər söz azadlığı təmin olunmursa, onda hökumət səhvlərini necə düzəldəcək, inkişaf necə baş verəcək?**

- Bir qədər söz azadlığı vermək olar. Amma ciddi dəyişiklik lazım deyil. Proqnozum belədir ki, adamlar bu azadlıqdan sui-istifa-

lazımdır ki, insanların mədəniyyəti dəyişsin.

### "SƏBR ETMƏK LAZIMDIR"

**- Məsələn, rüşvətlə mübarizə aparan olmasa, bu haqda azad mətbuat yazmasa, adamlar etiraz etməsələr, hakimiyyət niyə rüşvətin kökünü kəsməlidir axı? Bu, ona sərf edir axı. Zamanla vəziyyət lap pisləşməyəcəkmi?**

- Bu, çətin sualdır. Bir yanaşma budur ki, rüşvəti ləğv etmək üçün Çindəki kimi güllələmək lazımdır. İkinci yanaşma isə zamana bağlıdır. İnsanların təhsil səviyyəsi yüksəlməlidir, səviyyə qalxmalıdır.

**- Sizin dediklərinizdən belə başa düşdüm ki, hər iki halda bu, hakimiyyətlə bağlı məsələdir. Yəni hər iki yanaşmanızda tədbiri hökumət görməlidir.**

- Bilirsiniz, kənardan baxıb qiymət vermək, çıxış yolu göstərmək çətindir. Əmək haqlarını qaldırmaq da bu vəziyyəti düzəldə bilər. Səbr etmək lazımdır.

**- Yəni əlini-əlinin üstünə qoyub gözləməkmi?**

- Vaxt keçdikcə, adamlar kimə səs vermək lazım olduğunu yaxşı biləcəklər, təhsil səviyyəsi qalxacaq, həyat səviyyəsi qalxacaq.

**- Özünüzü şanslı adam hesab edirsinizmi? Azərbaycanda doğuldunuz, İranda böyüdünüz, amma ömrünüzü bu ölkələrdə davam etdirmədiniz?**

- Azərbaycanın mənim qəlbimdə xüsusi yeri var. Bu ölkəni 10 yaşımda tərk etmişəm, amma xatirələrim çox yaxşıdır. Təsəvvür edin ki, bu illər ərzində rus dilini unutmadım. Halbuki, rusca demək olar ki, heç danışmıram.